KRED
№41 (1021) 13 noyabr 2020-ci il

# QARABAĞIM, QARABAĞ



*Kəlbəcər, işğaldan əvvəl*



*Kəlbəcər, qaynar bulaqlar*



*Cəbrayıl, "Dostluq bulağı"*



*Xələfli kəndinin (Diri dağı) yandırılması*

2020-ci il sentyabr ayının 27-si müharibə başlamışdı. "Dağlıq Qarabağ" müharibəsi idi. 27 sentyabrdan dünənki - 09 noyabra qədər işğaldan azad olunan rayonlarımız -Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa rayonlarımız alınmışdı. Bu gün (10 noyabr) ən gözəl xəbər verilmişdi. "Qarabağı aldıq" xəbərini eşidəndə elə çox sevindim ki, az qala sevincimdən göylərdə uçacağdım. Babam Əli Rza Xələflinin "QARA BAĞIM, QARABAĞIM" şeirini özümün qəlbimdən gələn səs kimi eşidirəm, oxuyuram:

Əsir olub Qarabağım,
Neçə ildi yol gözləyir.
Ağlayır aranım, dağım,
Həsrət-həsrət qol gözləyir.

Göynək-göynək yara yeri,
Dəli dağın kürəyində.
Araz üstə əsir Diri,
Dərd gəzdirir ürəyində.

Dağlarının baxtı gülər,
Ulayar qurdu, Kəlbəcər.
Vüsalının vaxtı gələr,
Atamın yurdu Kəlbəcər.

Əl uzatsam əlim yetən,
Cəbrayıl anam elidi.
Gözlərində ümid bitən
Qoca Dağların gülüdü.

İşıq tutaq yurdu, yeri,
Yarı qalsaq, yarı gedək.
Gəlməsə də üzü bəri,
Biz dağlara sarı gedək.

Bir od yanar Dəli dağdan,
Şimşək olub çaxır dünya.
"Könlüm keçir Qarabağdan"
Belə qalmaz axı, dünya.

Sağalar yaran da gedər,
Ay yaralı Qarabağım.
Alur səni azad edər,
Qara bağım, qara bağım.

Bu şeiri babam 11.09.2017-ci ildə yazıb və mənə həsr edib.

Atam Kəlbəcər rayonunun Zivel kəndindəndi, o, mənə öz yurdundan danışdı: "Evimizin yanında İstisu var idi. Uşaq vaxtı həmişə ora gedirdim, çox qaynar idi".

27 oktyabr ad günüm idi. Mən həmin gün dedim ki, bu il, bu gün olmasa da İnşəAllah gələn il ad günümü Kəlbəcərdə, Qarabağda keçirəcəm.

Əlbəttə, anam da Cəbrayıldan danışırdı (anam Cəbrayılın Dağ Xələflisindəndi).

Anamgil 7 yaşına kimi Dağ Xələflidə olmuş, sonra isə Cəbrayıl şəhərinə köçdülər. Anam dedi ki: "Mən 15 yaşımda olanda bina evində yemək yediyimiz yerdə erməni vəhşiləri top atdılar. Zərbənin təsirindən pəncərənin sınmış şüşələri yeməyimizin içinə dağıldı. Mən sanki anamın söhbəti ilə, atamın dediklərilə Qarabağı birərbirər gəzdim: "QARABAĞ" indi sən bizə nə qədər yaxınsan:

ALLAH bütün əsgərlərimizi qorusun! Allahdan yaralılara şəfa, şəhidlərə isə rəhmət diləyirəm.



Alur Cəbrayılzadə

*2020*